## Cəfər Cabbarlının 100 illik yubileyinin keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1999-cu ildə milli dramaturqiyamızın banilərindən biri olan böyük yazıçı və dramaturq Cəfər Cabbarlının anadan olmasının 100 illiyi tamam olur. Cəfər Cabbarlı dərin zəkasə və milli ruhu ilə səciyyələnən dahi sənətkar kimi özündən sonra zəngin bədii irs qoyub getmişdir. Azərbaycanda kino sənətinin inkişafında da Cəfər Cabbarlının xüsusi xidmətləri olmuşdur.

Azərbaycan ədəbiyyatının və mədəniyyətinin görkəmli nümayəndəsi Cəfər Cabbarlının 100 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Cəfər Cabbarlının 100 illik yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat komitəsinin sədri**

| | |
|---|---|
| Elçin **Əfəndiyev** | - Azərbaycan Respublikası Baş nazirinin müavini |

**Təşkilat Komitəsinin üzvləri**

| | |
|---|---|
| Vasif **Talıbov** | - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri |
| Rəfael **Allahverdiyev** | - Bakı şəhər İcra hakimiyyətinin başçısı |
| Yusif **Hümbətov** | - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Ərazi İdarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Fatma **Abdullazadə** | - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri |
| Fərəməz **Maqsudov** | - Azərbaycan Elmlər Akademiyasının prezidenti |
| Polad **Bülbüloğlu** | - Azərbaycan Respublikasının mədəniyyət naziri |
| Misir **Mərdanov** | - Azərbaycan Respublikasının təhsil naziri |
| Sirus **Təbrizli** | - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri |
| Nizami **Xudiyev** | - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri |
| Şamil **Şahməmmədov** | - Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin Baş direktoru |
| Oqtay **Mirqasımov** | - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru |
| Anar **Rzayev** | - Azərbaycan Yazıçılar Birliyinin sədri |
| Tofiq **Quliyev** | - Azərbaycan Bəstəkarlar İttifaqının sədri |
| Bəxtiyar **Vahabzadə** | - xalq şairi |
| Nəbi **Xəzri** | - xalq şairi |
| Bəkir **Nəbiyev** | - Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi |
| Rasim **Daşdəmirov** | - Gəncə şəhər İcra Hakimiyyətinin başçısı |
| Vəfadar **Muradov** | - Xızı rayon İcra Hakimiyyətinin başçısı |
| Şəfiqə **Məmmədova** | - xalq artisti |
| Amaliya **Pənahova** | - xalq artisti |

Gülarə **Cabbarlı** - Cəfər Cabbarlının ev muzeyinin direktoru

Yaşar **Qarayev** - Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

Ağamusa **Axundov** - Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru

Həsənağa **Turabov** - Azərbaycan teatr Xadimləri İttifaqının prezidenti

Kamal **Abdullayev** - Mədəniyyət Fondunun sədri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 23 fevral 1999-cu il
№ 99